İnqmar Berqman

Tərcümə etdi: Samirə Əşrəf

# “Sevgili Liv...”



***Liv Ulman 16 dekabr 1939-cu ildə Tokio şəhərində norveç əsilli ailədə doğulub. Məktəbi bitirdikdən sonra sənədlərini Londondakı İncəsənət Dram məktəbinə verib. Oranı bitirdikdən sonra ailəsi ilə birlikdə Norveç şəhərinə köçür.***

***Aktrisanın ilk rolu 1957-ci ildə Stavanqere şəhərində fəaliyyət göstərən ‘Roqaland” teatrında olur. Tamaşa zamanı Livi səhnədə görən rejissor İnqmarBerqman aktrisa ilə tanış olur və onu ‘Persona”filminə dəvət edir. Həddindən artıq utancaq və sadə xasiyyətli Liv İnqmarBerqmanın bu təklifi ilə razılaşır.***

***Həmin vaxt Livin iyirmi beş Berqmanın isə qırx altı yaşı vardı.***

“Persona” filminin çəkilişləri vaxtı onlar bir-birlərinə aşiq olurlar. Liv daha gənc olduğundan hislərini daha tez biruzə verir. Xatirələrində hər səhər göz yaşları içərisində ayılıb çəkilişə getdiyini deyən Ulman rejissorun da ona biganə qalmadığını qeyd edir: “Çəkiliş arası fasilələrdə mən həmişə bir kənara çəkilib kitab oxuyurdum. Hərdənbir fürsətdən istifadə edib onlara baxırdım və Berqmanın davamlı mənə baxdığını görürdüm. Bu xoşuma gəlirdi.”

Rejissor isə Livə yazdığı məktublarının birində məhəbbətini belə izhar edir: “Sevgili Liv, hər yerdə varsan. Pəncərədən süzülən işıqda, yataqda, stulda, hamamın qapısındag Səni şüşə divarın arxasından görmək mənə cəhnənnəm əzabı yaşadır. Mənimlə bir əlaqə yaratmağın üçün dua edirəm. Bütün qəlbim səni arzulayır. Qadınlığınla, şəfqətinlə qucaqla məni.”

“Persona” filminin çəkilişləri bitən kimi Liv Norveçə dönür. Onu bu addımı atmağa aradakı yaş fərqini və Berqmana daha çox bağlanma qorxusu vadar edir. Berqman isə firkiləşmədən bir neçə gün sonra Ulmanın ardınca Norveçə gedir. Onu tanıyan bir neçə yaxın adamdan və ən yaxın rəfiqəsi Bibi Andersondan Livi xəbər alıb, onun yaşadığı evə gəlir və aktrisaya məhəbbətini bildirib onunla birlikdə yaşamasını xahiş edir.

***Lakin həmin vaxtı onlar hər ikisi ailəli idilər. Liv isə Berqmandan uşaq gözləyirdi. Aktrisa qeyri-münasibətini ərinə açıqlamağa ürək etmir. Bu barədə anası qədər sevdiyi qaynanasına məktub yazıb ərinin evini tərk edir.***

***Berqman onu ilk dəfə tanış olduqları Baltik dənizinin sahilində yerləşən Forye adasına gətirir. Orada isə Liviinanmayacağı bir sürpriz qarşılayır. Berqman onların birgə yaşayacağı evi məhz həmin adada inşa etdirir. Onlar qanuni nikaha girməsələr də həmin gündən etibarən birlikdə yaşamağa başlayırlar.***

Günün çox hissəsini öz otağında ssenarilərini yazmaqla, kitab oxumaqla keçirən BerqmanLivə qarşı çox qısqanc və tələbkar olur. Evə heç kimi qonaq qəbul etməməyi və onun icazəsi olmadan harasa getməyi aktrisaya qadağan edir. Bir müddət sonra aktrisa analıq səadətini yaşayır. 1966-cı ildə onların Linn adlı qızları dünyaya gəlir. Lakin qızlarının olması belə onların ailəsindəki söz-söhbəti azaltmır. Əksinə rejissor hər gün daha çox qısqanc və dözülməz olmağa başlayır. O, Livi ətrafda olan hər kəsə qısqanır, onu evdən bayıra buraxmır, çəkilişlər zamanı isə aktrisaya olmazın əziyyətlər verməyə başlayır. Ulmanın sadə və həlim xasiyyəti ailəsində baş verənləri sakitliklə qarşılamağa məcbur edir. Lakin vəziyyət getdikcə dözülməz həddə çatır. İnqmar və Liv ayrılmağa qərar verirlər. Aktrisa qızının və özünün əşyalarını yığıb evi tərk edərək Norveçə ailəsinin yanına yola düşür. Və teatrda işə düzəlir.

Ara sıra aktrisaya məktub yazan İnqmar bir məktubunda belə yazır: “Liv, indi bu ayrılığın nə qədər lazımlı olduğunu anlayıram. Əks halda bir-birimizi oda atmış olacaqdıq. Və biz hələ də yaşamağı bacara bilərik. Daim fiziki və mənəvi ağrı duyuram. Sən məni başa düşürsən. Səni sevirəm. Mənim kiçik, sevgili dostum.”

Berqmanla ayrılığı həzm edə bilməyən aktrisa özünü bütünlüklə teatrdakı işinə həsr edir. Elə həmin ərəfədə Liv Hollivudda filmə çəkilmək üçün yaxşı təkliflər alır. Tezliklə Hollivuda gedən aktrisa gözlənilməz tamaşaçı sevgisi ilə rastlaşır. Ard-arda dörd filmə çəkilən Liv xeyli teleşouların, proqramların qonağı olur. Elə həmin dövrdə onun “Dəyişikliklər” adlı avtobioqrafik kitabı çap olunur. Aktrisa kitaba uşaqlıq, gənclik illərindən bəhs edən xatirələrini daxil edir. Həmçinin çəkildiyi filmlərdə baş verən maraqlı əhvalatları, İnqmarla olan bərabərlikləri zaman yaşananları da qeyd etməyi unutmur. Gündən-günə məşhurlaşan aktrisa tezliklə digər məşhur rejissolardan və Berqmandan iş təklifləri almağa başlayır.

Aktrisa ilə Berqmanın ailə həyatı müvəffəqiyyətsiz olsa da, onların dostluğu və işbirliyi uzunmüddətli olur. Belə ki, sonralar ona məşhurluq gətirən ən yaxşı rolları İnqmarBerqmanın filmlərində yaradır. “Canavar vaxtı”, “Qorxu”, “Pıçıltı və qışqırıq”, “Payız sonatası”, “Sarabanda” kimi filmlərə çəkilən aktrisa 90-cı illərin əvvəlində özünü rejissor kimi də sınayır və altı film çəkir.

***Heç vaxt ailə həyatı qurmayan aktrisanın adı həm də rus rejissoru AndreyKonçalovski ilə hallanır. Aktrisaya vurğun olan Konçalovski onun ardınca Norveçə gedir. Rejissorun hər hansısa iş təklifi edəcəyini gözləyən aktrisa onunla görüşüb işlədiyi teatrın kafesində nahar edir. Lakin Liv bilələndə ki, Konçalovski ancaq onu görmək üçün Norveçə gəlib bundan xeyli mütəəssir olur. Liv rejissoru evinə qonaq dəvət edir. Onlar gecə səhərə qədər şərab içib söhbətləşirlər.***

***Aktrisa sonuncu dəfə 2013-cü ildə GeorqMassın ‘İki həyat” filminə çəkilib. Liv Ulman hal-hazırda yetmiş yeddi yaşındadı. O, qızı və nəvələri ilə birgə Norveçdə yaşayır.***

*Heç vaxt ailə həyatı qurmayan aktrisanın adı həm də rus rejissoru AndreyKonçalovski ilə hallanır. Aktrisaya vurğun olan Konçalovski onun ardınca Norveçə gedir. Rejissorun hər hansısa iş təklifi edəcəyini gözləyən aktrisa onunla görüşüb işlədiyi teatrın kafesində nahar edir. Lakin Liv biləndə ki, Konçalovski ancaq onu görmək üçün Norveçə gəlib bundan xeyli mütəəssir olur. Liv rejissoru evinə qonaq dəvət edir. Onlar gecə səhərə qədər şərab içib söhbətləşirlər*